

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 177 (21.078)

*17 sentyabr 2014-cü il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Almaniya Bundestaqının Xristian Demokrat İttifaqı/Xristian Sosialist İttifaqı fraksiyasının sədr müavini, deputat Andreas Şokenhofu qəbul edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına, Azərbaycan ilə Avropa İttifaqının əməkdaşlığına dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir

Sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun və Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının fəaliyyətinin təşkili barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri, Ali Məclisin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının və Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının sədr müavini Əli Həsənov, Bilik Fondunun Himayəçilik Şurasının üzvü, Naxçıvan Dövlət Universitetinin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Saleh Məhərrəmov və Bilik Fondunun Himayəçilik Şurasının üzvü, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli müzakirə olunan məsələ ilə bağlı məlumat vermişlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, professor Fəxrəddin Səfərli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun və Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının yaradılmasının əhəmiyyətini vurğulamışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: "Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 23 avqust tarixli Fərmanı ilə elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika mükafatları təsis edilmiş, Mükafat Komissiyası yaradılmış, Komissiyanın Əsasnaməsi və tərkibi müəyyənləşdirilmişdir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 4 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu yaradılmış, Fondun Nizamnaməsi və Himayəçilik Şurasının tərkibi təsdiq edilmişdir. Mükafat Komissiyasının yaradılmasında məqsəd Naxçıvan Muxtar Respublikasında ən yaxşı əsərləri qiymətləndirmək və yaradıcı ziyalıları müasir tələblərə cavab verən yüksək səviyyəli əsərlər yaratmağa təşviq etməkdən, Bilik Fondunun yaradılmasında isə məqsəd muxtar respublika əhalisini maarifləndirmək, dövlət siyasətinin, ictimai-siyasi və sosial-iqtisadi proseslərin mahiyyətini ictimaiyyətə çatdırmaqdan, Naxçıvanşünaslığın öyrənilməsindən, milli-mənəvi və dini dəyərlərin təbliğindən ibarətdir".

Ali Məclisin Sədri muxtar respublika əhalisinin həm maarifləndirilməsi, həm də biliklərinin artırılması baxımından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında Bilik Fondunun üzərinə mühüm vəzifələr düşdüyünü bildirmiş, qarşıda duran vəzifələrin icrası ilə bağlı tapşırıqlar verərək demişdir: "Fond muxtar respublika əhalisinin maarifləndirilməsi məqsədi ilə tədbirlər təşkil etməli, əhaliyə dolğun biliklər çatdırmalıdır. Həmçinin Naxçıvanşünaslığın mahiyyətini, milli-mənəvi və dini dəyərləri təbliğ etməlidir. Xeyriyyə marafonlarının və mədəni-kütləvi tədbirlərin keçirilməsi Bilik Fondunun fəaliyyət istiqamətlərindən olmalı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu ilə birlikdə gənclərlə işin təşkili üçün tədbirlər planı hazırlanmalıdır. Gənclərin biliklərinin, bacarıqlarının, peşəkarlıq səviyyələrinin və dünyagörüşlərinin inkişafına dəstək verilməlidir. Bilik Fondu Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə təhlil və tədqiqatların aparılmasına da xüsusi yer ayırmalı, dövlət siyasətinin mahiyyəti ilə bağlı materialların hazırlanaraq mətbuatda yayılmasını diqqətdə saxlamalı, elmi konfranslar, seminarlar, dəyirmi masalar və disputlar təşkil etməlidir".

Qeyd olunmuşdur ki, Bilik Fondu dövlət və yerli özünüidarəetmə orqanları, kütləvi informasiya vasitələri, muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyət göstərməli, ehtiyac yarandıqda müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etməlidir. Fond təbliğat xarakterli materialların çap olunmasını, kitabların, analitik materialların hazırlanmasını və yayılmasını, eləcə də müvafiq tələblərə cavab verən əsərlərin Mükafat Komissiyasına təqdim olunmasını təmin etməlidir. Fondun Himayəçilik Şurası Fondun fəaliyyət istiqamətlərinə uyğun layihə və tədbirlərin həyata keçirilməsi üçün təkliflər hazırlamalı və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etməlidir. Eyni zamanda Fondun ilin sonunadək olan dövr üçün iş planı hazırlanmalı, kargüzarlıq işlərinin aparılması və qəbul edilən qərarların icrası təmin edilməlidir.

Elmi əsərlərin qiymətləndirilməsi və yaradıcı ziyalıların fəaliyyətinin stimullaşdırılması baxımından Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının da üzərinə mühüm vəzifələr düşdüyünü bildirən Ali Məclisin Sədri demişdir: "Komissiya ilkin olaraq zəruri təşkilati işlər görməli, elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat sahələri üzrə ən dəyərli əsər, yaxud layihələrin seçilməsinə ciddi yanaşmalı və tələbkar olmalıdır. Diqqət etmək lazımdır ki, mükafata təqdim edilən əsərlər elmin, texnikanın, memarlığın, mədəniyyətin və ədəbiyyatın inkişafına mühüm töhfələr verən əsərlər olsun. Onlar fundamental və tətbiqi elmi araşdırmaların nəticələrini özündə əks etdirməlidir.

Bilik Fondu, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, dövlət idarə və təşkilatları, ali təhsil müəssisələri mükafat üçün təqdim edilən əsəri ciddi müzakirə etməlidir. Fundamental və tətbiqi elmlərə aid əsərlər ali məktəblərin elmi şuralarında, bədii əsərlər isə yaradıcılıq birliklərində müzakirə olunduqdan sonra Komissiyaya təqdim olunmalıdır. Ali təhsil müəssisələri bu sahəyə ciddi yanaşmalı, elmi işlərin hazırlanmasına diqqəti artırmalıdır. Bəzi hallarda ali məktəblərin elmi şuraları ciddi müzakirə aparmadan əsərlərin çap olunmasına razılıq verirlər. Bu sahədəki nöqsanlar aradan qaldırılmalı, elmi əsərlərin yazılmasına tələbkarlıq artırılmalıdır. Əsərlərin Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasına vaxtında təqdim edilməsi də diqqətdə saxlanılmalıdır. Təqdim edilmiş əsərlərlə bağlı prosedurlara ciddi əməl olunmalı, mükafatlandırılacaq əsərlər vaxtında müvafiq müzakirələrdən keçirilməli, 2015-ci ilin sonunadək Komissiyaya təqdim edilməlidir".

Ali Məclisin Sədri demişdir: "Naxçıvanın elmi potensialı böyükdür. Bu potensialı daha da inkişaf etdirmək, rus, ingilis və ərəb dillərində xarici ölkələrdə çap olunmuş elmi-kütləvi və bədii ədəbiyyatla muxtar respublika oxucularını, habelə bu sahədə muxtar respublikada əldə olunmuş nailiyyətlərlə xarici ölkə oxucularını tanış etmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində tərcümə sektorunun yaradılması zəruridir. Ali Məclisin Aparatı bununla bağlı təklifləri ümumiləşdirib qısa müddətdə təqdim etməlidir. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi qanunvericiliyə uyğun olaraq, elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika mükafatları üçün vəsaitin ayrılmasını təmin etməlidir. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Mükafat Komissiyası ilə birlikdə Naxçıvan Muxtar Respublika mükafatları qalibinin diplomunun nümunəsini hazırlayıb qısa müddətdə Ali Məclisin Sədrinə təqdim etməlidir".

Ali Məclisin Sədri yeni yaradılan hər iki qurumun – Bilik Fondunun və Naxçıvan Muxtar Respublika Mükafatları Komissiyasının üzvlərinə qarşıya qoyulmuş vəzifələrin icrasında uğurlar arzulamışdır.





**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclası keçirilir

***Sentyabrın 16-da Naxçıvan Muxtar Respublikasında Müstəqil Dövlətlər Birliyi (MDB) İcraiyyə Komitəsinin təşəbbüsü və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) təşkilatçılığı ilə MDB-nin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclası öz işinə başladı.***

Tədbir iştirakçıları olan Azərbaycanın, Belarusun, Qazaxıstanın, Qırğızıstanın, Rusiya Federasiyasının, Moldovanın, Tacikistanın müvafiq qurumlarının rəhbərləri, MDB İcraiyyə Komitəsinin və BMT-nin Avropa İqtisadi Komissiyasının nümayəndələri əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad etdilər.

Qonaqlar Heydər Əliyev Muzeyini ziyarət edərək buradakı çoxsaylı eksponatlarla, ulu öndərin həyatının müxtəlif dövrlərinə həsr olunmuş qiymətli rəsm əsərləri, stendlərlə tanış oldular.

“Duzdağ” otelində öz işinə başlayan MDB-nin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclasını giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev qonaqları salamladıqdan sonra Naxçıvan Muxtar Respublikasının ərazisi, əhalisi, təbii sərvətləri, muxtariyyətin yaranma tarixi, Naxçıvanın muxtariyyət statusu barədə ətraflı məlumat verdi.



Şamı Abdullayev muxtar respublikanın 20 ildən artıq müddətdə blokada şəraitində yaşadığını bildirərək əlavə etdi ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi siyasətin nəticəsində qədim diyar ildən-ilə daha da sürətlə inkişaf edir, çiçəklənir. Həmin inkişaf nəticəsində burada çoxsaylı sənaye müəssisələri yaradılaraq uğurla fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikasındakı sənaye müəssisələrində görülən təhlükəsizlik tədbirləri barədə iştirakçıları məlumatlandıran Şamı Abdullayev bu məsələnin muxtar respublika rəhbərinin daim diqqət mərkəzində olduğunu bildirdi. Qeyd olundu ki, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Naxçıvanda texnogen qəzaların qarşısı tamamilə alınıbdır. Bununla belə, bu cür mühüm tədbirin keçirilməsi, qabaqcıl nailiyyətlərin öyrənilməsi təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini Orucəli Hacıyev ulu öndər Heydər Əliyevin “Fövqəladə hadisələrin qarşısının alınması onun nəticələrinin aradan qaldırılmasından daha asandır” kəlamını xatırladaraq bildirdi ki, müasir şəraitdə ehtimal olunan texnogen qəzaların peşəkar proqnozlaşdırılması və qarşısının alınması böyük əhəmiyyət daşıyır. Buna görə də MDB ölkələri arasında bu məsələlərlə bağlı sıx əməkdaşlığın davam etdirilməsi, təcrübə mübadiləsinin aparılması bir sıra məsələlərin həllində mühüm rol oynayacaqdır.

Orucəli Hacıyev qeyd etdi ki, Naxçıvanda keçirilən MDB-nin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclasının əsas məqsədi üzv ölkələr arasında təhlükəli istehsal obyektlərində sənaye təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi və bu istiqamətdə əldə edilmiş təcrübələrdən birgə yararlanmaq perspektivləri ətrafında fikir mübadiləsi aparmaqdır.

Tədbirdə Azərbaycan Respublikasında sənayedə təhlükəsizliyin təmin edilməsi barədə hazırlanmış videoçarx nümayiş olundu.



MDB İcraiyyə Komitəsinin Təhlükəsizlik sahəsində əməkdaşlıq, yeni çağırış və təhdidlərə müqavimət departamentinin fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq şöbəsinin müşaviri Sergey Mixnoveç MDB-nin icraçı katibi Sergey Lebedevin iclas iştirakçılarına ünvanlanmış məktubunu oxudu.

Sonra MDB-nin Dövlətlərarası Şurasına Sənayedə Təhlükəsizlik Şurasına sədrliyin Belarusdan Azərbaycan Respublikasına keçdiyi elan edildi.

Sentyabrın 16-da keçirilən iclasda tərəflər iştirakçı dövlətlərin qanunvericiliyindəki dəyişikliklərin və son bir ildə bu istiqamətdə göstərilən fəaliyyətin nəticələrini, neft-qaz sahəsinin mürəkkəb və təhlükəli istehsalat obyektlərində nəzarət-profilaktika yoxlamaları aparılması təcrübəsi barədə müzakirələr apardılar.

Həmin gün qonaqlar Naxçıvan şəhərindəki tarixi-memarlıq abidələri, Naxçıvan Dövlət Xalça Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inzibati binası ilə tanış olublar.

İclas öz işini bu gün davam etdirəcək.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı bütün sahələri əhatə etməklə bərabər, burada fəaliyyət göstərən müxtəlif dövlət qurumlarının da işinə hərtərəfli şərait yaratmışdır. Son illər muxtar respublikada dövlət idarə və müəssisələri üçün xeyli sayda yeni inzibati binalar tikilmiş, mövcud binaların əksəriyyəti əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir. Əlbəttə ki, yeni iş yerlərində müasir tələblərə uyğun infrastrukturun yaradılması vətəndaşlara yüksək səviyyədə xidmət göstərilməsinə imkan verir.***

# Elektron vasitələrin tətbiqi miqrasiya proseslərinin effektiv idarə edilməsinə şərait yaradır

Qısa zaman çərçivəsində öz fəaliyyəti ilə seçilən dövlət orqanlarından biri də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 31 may 2010-cu il tarixli Fərmanı ilə yaradılmış Dövlət Miqrasiya Xidməti muxtar respublika ərazisində miqrasiya sahəsində dövlət siyasətini, miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən dövlət qurumudur. Xidmətin fəaliyyət çərçivəsinə muxtar respublikada miqrasiya proseslərinin təhlili, proqnozlaşdırılması və monitorinqinin təşkil edilməsi, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, ölkəyə gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olma müddətlərinin uzadılması ilə bağlı qərarın verilməsi, o cümlədən vətəndaşlıq, qaçqın statusunun müəyyənləşdirilməsi kimi məsələlər də daxildir.

Naxçıvan Muxtar Respublikasının mühüm geostrateji ərazidə yerləşməsi miqrasiya proseslərinin effektiv idarə edilməsi ilə yanaşı, həm də muxtar respublikaya gəlib-gedən əcnəbilərin, habelə vətəndaşlığı olmayan şəxslərin müraciətlərinin qanunvericiliyə uyğun olaraq tənzimlənməsini zəruri edir. Bu sahədə həyata keçirilən mütərəqqi tədbirlər artıq öz müsbət nəticələrini verməkdədir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti rəsmi saytında ***(www.miqrasiya.nakhchivan.az)*** aktiv şəkildə vətəndaşlara Naxçıvan Muxtar Respublikasında müvəqqəti olma müddətinin uzadılmasını, müvəqqəti və daimi yaşamaq (immiqrant statusu almaq), əcnəbinin Naxçıvan Muxtar Respublikası ərazisində haqqödənilən əmək fəaliyyətini həyata keçirməsi məqsədilə iş icazəsinin alınmasını və müddətinin uzadılmasını, Azərbaycan Respublikası vətəndaşlığının bərpa edilməsi üçün müraciətlərin və sənədlərin qəbulunu, həmçinin cərimələrin internet vasitəsilə ödənilməsini təklif edir.

Naxçıvan Muxtar Respublikasının turizm potensialının artırılması, müxtəlif turizm növlərinin inkişaf etdirilməsi istiqamətində görülən və yaxın gələcəkdə görüləcək işlər bura gələn turistlərin miqrasiya məsələlərinin rahat, təhlükəsiz və müasir standartlara uyğun şəkildə təminatını da ön plana çıxarır. Dövlət Miqrasiya Xidməti tərəfindən bu istiqamətdə atılan addımlar öz əhəmiyyəti ilə seçilir. Xidmətin Vahid Miqrasiya Məlumat Sistemi üzərindən “Mehmanxana qeydiyyatı alt sistemi” proqram təminatının fəaliyyəti qeyd olunan məsələlərin həllində mühüm rol oynayır. Sistem muxtar respublika ərazisində lisenziya əsasında fəaliyyət göstərən mehmanxanalarda qurularaq istifadəyə verilib. Bu sistem vasitəsilə mehmanxanalar üzrə yerləşmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qeydiyyatı Dövlət Miqrasiya Xidməti tərəfindən görülür və nəzarət aparılır. Eyni zamanda bu sistem vasitəsilə ölkə ərazisində 3 gündən artıq yaşamaq istəyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sənədləri Dövlət Miqrasiya Xidməti tərəfindən qəbul edilərək icraata götürülür və qanunvericilikdə nəzərdə tutulmuş qaydada 1 iş günü ərzində onların olduğu yer üzrə qeydiyyata alınmaları barədə məlumat verilir. Bu sistem sənədlərin Dövlət Miqrasiya Xidməti ilə mehmanxanalar arasında elektron formada dövriyyəsinə, qeydiyyatına, hərəkətinin və icrasının səmərəli idarə olunmasına, dövriyyə zamanı vaxt itkisinin tənzimlənməsinə, əməkdaşın və bütövlükdə, təşkilatın işinin məhsuldarlığının və idarəçiliyin keyfiyyətinin artırılmasına xidmət edir.

Müasir dövrdə istənilən əcnəbi üçün getdiyi ölkənin qanunvericiliyi ilə ilkin tanışlıq və mövcud imkanlardan heç bir bürokratik əngəl olmadan yararlanmaq böyük fürsət hesab olunur, eyni zamanda həmin ölkənin miqrantlara verdiyi dəyər kimi qiymətləndirilir. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən miqrasiya sahəsində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədilə muxtar respublikanın gömrük məntəqələrində quraşdırılan elektron məlumat köşkləri bu dəyəri daha da artırır. Azərbaycanda ilk dəfə Naxçıvan Muxtar Respublikasında tətbiq edilən bu köşklər hazırda Sədərək, Şahtaxtı və Culfa sərhədburaxılış məntəqələrindəki miqrasiya bölmələrində yerləşdirilmişdir. Naxçıvan Beynəlxalq Hava Limanında isə elektron məlumat köşkünün yerləşdirilməsi və istifadəyə verilməsi üçün hazırlıq işləri aparılır.

Qeyd edək ki, məşhur “Delta” şirkətinin məhsulu olan elektron məlumat köşklərinin hündürlüyü 113 santimetr, monitorlarının eni 87, uzunluğu isə 56 santimetrdir. Elektron köşklərin ekranı sensorla (barmaq toxunması) idarə edilir. Köşklərin üzərində hazırlanmış proqram təminatı “Windows” əməliyyat sistemi üzərində qurulmuşdur ki,



bu da zəruri olduğu halda, həmin proqram üzrə yerləşdirilmiş məlumatlarda müəyyən dəyişikliklər etməyə imkan verir. Haqqında bəhs olunan elektron köşklərdə əcnəbi və vətəndaşlığı olmayan şəxsləri maarifləndirmək məqsədilə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində nəzərdə tutulmuş aşağıdakı məlumatlar yerləşdirilmişdir:

*- əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı;*

*- əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması;*

*- əcnəbi və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi;*

*- əcnəbi və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazənin verilməsi.*

Bundan əlavə, köşklərdə yerləşdirilmiş məlumatlarda Dövlət Miqrasiya Xidmətinin göstərdiyi xidmət növləri üzrə qanunvericilikdə nəzərdə tutulmuş dövlət rüsumları da öz əksini tapmışdır. İstənilən əcnəbi və ya vətəndaşlığı olmayan şəxs üçün idarə olunması asan olan elektron məlumat köşklərinin proqram təminatı 3 dildə (Azərbaycan, rus və ingilis dillərində) tərtib olunmuşdur. Köşkdən istifadə zamanı əcnəbinin seçdiyi dil məlumatların eyni anda həmin dildə səslənməsinə də imkan verir. Xüsusi qidalandırma bloklarına qoşulmuş elektron məlumat köşkləri xidmətin kəsintisiz fəaliyyət göstərməsinə zəmanət verir.

*Bu gün muxtar respublikamızda miqrasiya proseslərinin effektiv idarə olunması istiqamətində həyata keçirilən bu tədbirlər mövcud sahəyə göstərilən dövlət qayğısı ilə yanaşı, həm də innovativ yeniliyin təzahürü kimi qiymətləndirilməlidir.*

**S.HƏSƏNOV**

# Zəka Oyunları Festivalı keçiriləcək

Dövlət gənclər siyasətinin əsas prioritet istiqamətlərindən biri də gənclərdə intellektual bilik və bacarıqların yaranması və inkişaf etdirilməsidir. Son illərdə ölkədə intellektual hərəkatın inkişafı və Azərbaycan gənclərinin beynəlxalq intellektual hərəkata qoşulmasına şəraitin yaradılması kimi önəmli məsələlər diqqətdən kənarda qalmamışdır. Bu məqsədlə gənclər və yeniyetmələr arasında “Xəmsə” milli intellektual oyunu üzrə Azərbaycan çempionatları, “Xəmsə” milli intellektual oyunu üzrə I Dünya Çempionatı, “Nə? Harada? Nə zaman?” intellektual oyunu üzrə Azərbaycan çempionatları, Azərbaycan Respublikası Prezidentinin Kuboku uğrunda “Breyn Rinq” intellektual oyunu üzrə beynəlxalq turnirlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu Naxçıvan Dövlət Universitetinin Tələbə Elmi Cəmiyyəti ilə birgə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş I Zəka Oyunları Festivalı keçirəcək. Bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev qəzetimizə məlumat verib.

Naxçıvan Muxtar Respublikasında yaşayan gənclər arasında keçiriləcək I Zəka Oyunları Festivalı gənclərin intellektual biliklərinin inkişafına xidmət edir. Layihənin əsas məqsədi muxtar respublikada intellektual oyunlar hərəkatının inkişafına yardım göstərmək, gənclərin bu sahəyə olan marağını artırmaq, onlarda intellektual bilik və bacarıqların inkişafına köməklik göstərməkdir. Eyni zamanda gənclərin asudə vaxtlarının səmərəli keçirilməsinə yardım etmək, gənclər arasında maarifçiliyi təbliğ etmək, belə yarışların keçirilməsinə təkan vermək, intellekt sahiblərini aşkar etmək, gələcəkdə ölkə və beynəlxalq səviyyədə keçiriləcək intellektual yarışlarda onların muxtar respublikamızı layiqincə təmsil etməsinə dəstək verməkdir. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunan layihə gənclərin intellektual bilik və bacarıqlarının inkişafına, onların bu sahəyə olan marağının artırılmasına, gənclər arasında maarifçiliyin təbliğinə, intellekt sahiblərinin aşkara çıxarılmasına, ölkə və beynəlxalq səviyyəli turnirlərdə gənclərimizin iştirakının artırılmasına, Naxçıvan Muxtar Respublikasında intellektual sahədə həyata keçirilən fəaliyyətə köməklik məqsədi daşıyır.

İki ay davam edəcək layihədə yaşı 14-dən 29-dək olan gənclər 6 nəfərlik komandalar şəklində iştirak edəcəklər. Layihə çərçivəsində gənclər arasında “Nuh Yurdu”, “Nə? Harada? Nə zaman?” və “Breyn Rinq” intellektual oyunları keçiriləcəkdir. Qalib komandalar və intellektual yarışlarda fərqlənən komandalar təşkilatçılar tərəfindən mükafatlandırılacaqlar.

**Elnur KƏLBİZADƏ**



Babək qəsəbəsindən görünüş

Naxçıvan Muxtar Respublikası – 90

# Naxçıvanın şərəflə yazılmış muxtariyyət tarixində Babək rayonu da böyük inkişaf yolu keçib

***Bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90-cı ildönümünü qeyd edir. Bu 90 illik tarixə nəzər salsaq, görərik ki, muxtar respublikamız böyük bir yol qət etmişdir. Ancaq etiraf etmək lazımdır ki, qət edilən yolu zaman baxımından deyil, inkişaf baxımından dəyərləndirsək, görərik ki, son 20 ilə yaxın dövr daha böyük əhəmiyyət kəsb edir. Müstəqilliyimizin bərpasından sonrakı dövrə təsadüf edən sürətli inkişaf muxtar respublikanın iqtisadi, siyasi və beynəlxalq nüfuzunu önə çıxarmaqla yanaşı, həm də 90 illik muxtariyyət tarixinin intibah dövrü kimi səciyyələndirilə bilər. Təbii ki, muxtariyyət illərinin çətin, mübariz, eyni zamanda şərəflə yazılmış tarixi yollarında həm də hər rayonun keçdiyi bir inkişaf yolu var. Böyük xalq qəhrəmanının adını daşıyan Babək rayonu ümummilli lider Heydər Əliyevin yaratdığı rayonlarımızdan biridir.***

Babək rayonu 1978-ci il oktyabrın 23-də təşkil olunmuşdur. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi ortaya çıxan yeni rayonun təşkil olunması ideyası həm də həmin dövrdə muxtar respublikada aparılan geniş quruculuq tədbirlərinin tərkib hissəsi kimi xatırlanır. Keçmiş Naxçıvan rayonunun tərkibindən ayrılaraq təşkil olunan yeni rayona xalq qəhrəmanı Babəkin adının verilməsi isə dahi şəxsiyyətin qətiyyəti, gələcək müstəqil Azərbaycan uğrunda apardığı böyük siyasətin qələbəsi idi.

Yarandığı dövrdən ötən müddət ərzində Babək rayonu böyük inkişaf yolu keçmiş, Heydər Əliyev ideyalarının uğurlu nəticələrinin əyani ifadəsinə çevrilən bir bölgəyə çevrilmişdir. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafındakı rolu nəzərə alınaraq 2008-ci ilin 7 iyun tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Babək rayonunun təşkil olunmasının 30 illiyi haqqında Sərəncam imzalamış və qəbul edilmiş tədbirlər planına əsasən, rayonun 30 illik yubileyi geniş şəkildə qeyd olunmuşdur. Adıçəkilən sərəncamın mətnində Babək rayonunun yaradıldığı dövrdən başlayaraq əldə etdiyi sosial-iqtisadi göstəricilər statistik rəqəmlərlə ifadə edilmiş, müqayisəli təhlillə verilmişdir. Elə həmin mətndən bəzi məqamları oxucuların diqqətinə çatdırırıq. Qeyd edək ki, göstəricilər 2008-ci ilədək olan dövrü əhatə edir: *"...Babək rayonunda sənayenin inkişafı artan dinamikaya malikdir. Əgər təşkil olunduğu 1978-ci ildə rayonda məhdud sayda sənaye məhsulu istehsal olunurdusa, 2008-ci ildə burada 40 adda sənaye məhsulu istehsal olunur. 1995-ci ildən ötən müddət ərzində rayonda 32 yeni sənaye və emal müəssisəsi yaradılmışdır ki, bu da rayonun sənaye potensialını daha da gücləndirmişdir. 1990-cı ildə muxtar respublikada istehsal olunan sənaye məhsulunun 8 faizi Babək rayonunun payına düşürdüsə, 2007-ci ildə bu göstərici 19 faiz təşkil etmişdir. Kənd təsərrüfatının inkişafındakı roluna görə Babək rayonu aparıcı rola malikdir. 1994-cü ildən etibarən rayon ərazisində aqrar islahatlar həyata keçirilmiş, əhali pay torpaqları ilə təmin olunmuşdur. Rayon ərazisində meliorasiya işini yaxşılaşdırmaq məqsədilə 1978-ci ildən ötən dövr ərzində 38 nasos stansiyası, 45 subartezian quyusu tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmiş, 7 su anbarı yaradılmışdır. 2005-ci ildə Heydər Əliyev Su Anbarı istifadəyə verildikdən sonra Babək rayonunun 13 min 869 hektar sahəsinin suvarılması təmin olunmuş, 4 min 364 hektar yeni sahə əkin dövriyyəsinə daxil edilmişdir. Bütün bunlar aqrar sektorun inkişafına əhəmiyyətli təsir göstərmiş, rayon üzrə dənli və dənli-paxlalıların əkin sahəsi 1978-ci illə müqayisədə 2007-ci ildə 25 faiz, kartof əkini sahəsi 10 dəfə, tərəvəz əkini sahəsi 14 dəfə, bostan məhsullarının əkin sahəsi isə 21 dəfə çoxalmışdır. Öz növbəsində, məhsul istehsalı da yüksəlmiş, 1978-ci illə müqayisədə ötən il dənli və dənli-paxlalıların istehsalı 2 dəfə, kartof istehsalı 21 dəfə, tərəvəz istehsalı 10 dəfə, bostan məhsulları istehsalı 90 dəfə artmışdır... Xarakterikdir ki, 2007-ci ildə muxtar respublika üzrə kənd təsərrüfatında istehsal olunmuş ümumi məhsulun 24 faizi, yaxud 28 milyon 904 min manatı Babək rayonunun payına düşmüşdür..."*

İndi isə Babək rayonunun 2014-cü ilin ilk 7 ayında əldə edilmiş sosial-iqtisadi göstəricilərinə nəzər salaq. Muxtar respublikada sənaye məhsulları istehsalında mühüm yerə malik olan Babək rayonunda yanvar-iyul aylarında 66919,2 min manatlıq, yaxud ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çox sənaye məhsulu istehsal olunmuşdur. Qeyd edilən dövrdə rayonda əsas kapitala yönəldilən investisiyaların həcmi 39119,2 min manat olmuşdur. Aqrar sahədə mühüm nailiyyət əldə etmiş rayonda hazırda məhsul yığımı davam edir. Cari ilin sentyabr ayının 1-nə olan məlumata görə, rayonun əkin sahələrində 341 hektar sahədən 5686 ton kartof, 1932 hektar sahədən 13 min 408 ton tərəvəz, 1505 hektar sahədən 16 min 449 ton bostan məhsulları yığılmış, 72 hektar sahədə isə təkrar əkinlər aparılmışdır. Yeri gəlmişkən, bu il rayonun taxıl zəmilərində 10364,8 hektar sahədən 31 min 725 ton məhsul yığılmışdır.

Muxtar respublikada aparılan genişhəcmli tikinti-quruculuq tədbirləri Babək rayonunu da öz ağuşuna alıb. "Muxtariyyət ili"nin əvvəllərində 70 mindən çox rayon sakininə xidmət göstərən 4 mərtəbəli rayon Mərkəzi Xəstəxanası istifadəyə verilmişdir. Xəstəxanada ən müasir tibbi avadanlıqlar quraşdırılmış, nümunəvi iş şəraiti yaradılmışdır. Burada Poliklinika, Ümumi stasionar, Ginekologiya və doğuş, Təcili və təxirəsalınmaz yardım şöbələri və Hemodializ bölməsi fəaliyyət göstərir. Xəstəxananın şöbələrində müxtəlif xəstəliklərin müayinəsi və müalicəsi, cərrahiyyə əməliyyatlarının aparılması üçün hər cür şərait yaradılmışdır. Rayon Tarix-Diyarşünaslıq Muzeyinin binası da əsaslı şəkildə yenidən qurularaq bura gələn tamaşaçıların istifadəsinə verilmişdir. Hər iki tikilinin ətrafı abadlaşdırılmış, ətrafda yaşıllıq zolaqları salınmış, yeni işıqlandırma sistemləri quraşdırılmışdır. Hazırda Babək qəsəbəsində rayon Rabitə İdarəsi üçün zirzəmi ilə birlikdə dördmərtəbəli bina tikilir. Müasir memarlıq üslubunda tikilən bina rabitə işçilərinin hərtərəfli fəaliyyəti üçün geniş imkanlar açacaq. Bundan əlavə, qəsəbədə Heydər Əliyev prospektində avtomobil yolunun genişləndirilməsi, yolun hər iki tərəfində piyada səkilərinin salınması, vətəndaşlara məxsus həyət evlərinin yola tərəf olan hissələrində divarların tikintisi davam etdirilir.



Sirab kəndindən görünüş



Kərimbəyli kəndindən görünüş

Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin ötən ay imzaladığı Sərəncam isə rayon sakinlərinin əsl sevincinə səbəb olmuşdur. Sərəncama əsasən, rayonda 31 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq beş milyon manat ayrılması nəzərdə tutulmuşdur. Adıçəkilən yaşayış məntəqələrini birləşdirən dairəvi avtomobil yolunun yenidən müasir standartlara uyğun şəkildə qurulması mühüm əhəmiyyətə malikdir. Çünki əhalinin böyük bir hissəsinin yaşadığı həmin yaşayış məntəqələrini birləşdirən yol həm də rayondaxili əsas yol hesab olunur. Dairəvi yolun yenidən qurulması xalq qəhrəmanımızın adını daşıyan Babək rayonunun quruculuq xəritəsində xüsusi yer tutacaq. Xatırlatmaq yerinə düşər ki, həyata keçirilən quruculuq tədbirləri təkcə Babək qəsəbəsini deyil, kəndləri də əhatə edir. Hazırda rayonun Qahab, Naxışnərgiz, Qoşadizə və Güznüt kəndlərində kənd mərkəzi, həkim ambulatoriyası, xidmət mərkəzləri, Naxışnərgiz kəndində məktəb binası tikilir, Nehrəm, Qoşadizə və Güznüt kəndlərində isə məktəb binalarının yenidən qurulması davam etdirilir. Yaxın günlərdə Qahab kəndindəki obyektlərin istifadəyə verilməsi gözlənilir. Bir sözlə, əvvəlki illərdə olduğu kimi, "Muxtariyyət ili"ndə də Babək rayonu quruculuq tədbirlərindən öz nəsibini alacaq.

***Bəli, bu yazıda Babək rayonunun muxtariyyət illərindəki inkişafının bəzi məqamlarından bəhs etdik. Unutmayaq ki, xalq qəhrəmanının adını daşıyan rayon həm də Kültəpə kimi qədim arxeoloji abidələri, "Sirab" və "Vayxır" kimi mineral suları, Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında özünəməxsus xidmətləri olan İslam Səfərli, Zəroş Həmzəyeva və adını çəkmədiyimiz digər məşhur şəxsiyyətləri ilə də tanınır. Ancaq unutmayaq ki, bütün bu tanınanların tanınmasında da elə bu rayonun yaradıcısı və inkişafının müəllifi olan böyük şəxsiyyət Heydər Əliyevin ideyalarının izi aydın görünür.***

✍ Səbuhi HƏSƏNOV

## "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti müxtəlif çeşidlərdə yerli məhsullar satışa çıxarır

***"Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti 2006-cı ildə yaradılmışdır. Özəl bölməyə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnmiş, Sahibkarlığa Kömək Fondundan 1 milyon 80 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. İllik istehsal gücü 300 min dekalitr olan zavodda Amerika Birləşmiş Ştatları, İtaliya, Çexiya və Macarıstandan alınmış avadanlıqlar quraşdırılmış, müəssisə 2008-ci ilin oktyabr ayında istifadəyə verilmişdir. Eyni zamanda 2008-ci ilin mart ayında Sahibkarlığa Kömək Fondundan əlavə 50 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir ki, bu vəsaitlə müəssisədə yeni istehsal sahəsi – istehsal gücü gündə 1000 kiloqram olan balığın duzlanması və qurudulması sexi tikilmişdir.***

İstehsal edilən pivənin vaxtında yerlərə çatdırılması və keyfiyyətlə saxlanılması üçün müəssisəyə "Hundai" markalı soyuducu kamerası olan avtomobil alınmışdır. Bundan başqa, xammalın saxlanılması üçün 288 kvadratmetrlik anbar inşa edilmiş, 50 min manat dəyərində Çexiya istehsalı olan pasterizator avadanlığı alınıb quraşdırılmışdır. Bu da istehsal edilən pivəni 6 ayadək saxlama imkanına malikdir.

Müəssisədə daha bir istehsal sahəsinin yaradılması – sərinləşdirici içkilərdən kvas və limonad istehsalı üçün Sahibkarlığa Kömək Fondundan 2011-ci ilin avqust ayında 300 min manat güzəştli kredit ayrılmış, müasir tələblərə cavab verən istehsal sahələri inşa olunmuşdur. Burada gündəlik istehsal gücü 1 ton olan müasir texnoloji avadanlıqlar quraşdırılmış, 2012-ci ilin mart ayından kvas istehsalına başlanılmışdır. Kvas istehsalı üçün lazım olan xammal Rusiya Federasiyasından alınır, maqneziumsuz su isə Kəngərli rayonunun Çalxanqala kəndindəki bulaqlardan xüsusi maşınlarla daşınır. Xammal qaynadılmış su ilə xüsusi avadanlıqlarda qarışdırılır, ayrı-ayrı çənlərdə 3 gün müəyyən olunmuş temperaturda saxlandıqdan sonra istehsala buraxılır. Ötən ildə də bu istiqamətdə işlər uğurla davam etdirilmiş, Gürcüstan Respublikasından limonad istehsalı sahəsində qabaqcıl təcrübəyə malik mütəxəssislər cəlb olunmaqla limonad istehsalına başlanılmış, cari ildə istehsal sahəsi genişləndirilərək çeşidlərin sayı 5-ə çatdırılmışdır. Yeni istehsal sahələrinin yaradılması ilə müəssisədə 10, xidmət sahələrində isə 50 yeni iş yeri açılmışdır. Ümumilikdə, müəssisədə 35, xidmət sahələrində isə 200 nəfərdən çox işçi çalışır.

10 çeşiddə pivə istehsal etmək imkanı olan müəssisədə hazırda açıq və tünd olmaqla, 2 çeşiddə pivə istehsal olunur. İstehsal edilən pivə 0,33, 0,5 litrlik şüşə, 1 litrlik plastmas və 25, 50 litrlik çəlləklərdə, kvas 0,5, 1 litrlik plastmas, 25, 50 litrlik çəlləklərdə, limonad isə 0,5, 1 litrlik plastmas butulkalarda "Prestij" əmtəə nişanı ilə satışa çıxarılır.

Onu da qeyd edək ki, müəssisədə texniki təhlükəsizlik və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. İstehsal prosesindən sonra mütəmadi olaraq avadanlıqlara texniki qulluq göstərilir. Anbarlarda yerləşən çənlər isə hər dəfə boşaldılaraq natrium-hidroksid, fosfat və sirkə turşusu ilə yuyulub təmizlənir.

Gələcəkdə müəssisədə istehsal olunan məhsulların Azərbaycanın digər regionlarında da satışa çıxarılması planlaşdırılır.

✍ Kərəm HƏSƏNOV

Yeni nəşrlər

# Dünyaya pəncərə

***Bu günlərdə Əcəmi Nəşriyyat-Poligrafiya Birliyində şeirlərdən, hekayələrdən və dram əsərlərindən ibarət "Dünyaya pəncərə" adlı 3 kitab nəşr edilmişdir. Kitablar Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin 2012-ci ildə keçirilmiş konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq yaradılan Yazıçılar Birliyinin Bədii Tərcümə Mərkəzi tərəfindən hazırlanmışdır.***




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin konfransdakı çıxışında Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin qarşısında bir sıra problemlərin həll olunması məsələsini qoymuşdu. Bu problemlərdən biri də bədii tərcümə ilə bağlı idi. Konfransda Ali Məclisin Sədri demişdir: ***"Ciddi problemlərdən biri də bədii tərcümə ilə bağlıdır. Bu olmadan bədii əsərləri tərcümə edib yaymaq mümkün deyil. Muxtar respublikamızda elmi və publisistik əsərlərin, tarixi mövzuda yazılmış kitabların tərcüməsi sahəsində müəyyən təcrübə vardır. Lakin istər klassik, istərsə də müasir bədii əsərlərin tərcüməsi sahəsində boşluq qalmaqdadır. Muxtar respublikada xarici dillərdən birbaşa tərcümə ilə məşğul olan yazıçı və şairlərin olmasını əsas götürərək Yazıçılar Birliyi nəzdində Bədii Tərcümə Mərkəzi yaratmaq mümkündür".***

Konfransdan sonra Yazıçılar Birliyinin nəzdində Bədii Tərcümə Mərkəzi yaradıldı, filologiya üzrə fəlsəfə doktoru, şair, tərcüməçi Şirməmməd Qüdrətoğlu Bədii Tərcümə Mərkəzinə rəhbər təyin edildi. Bədii tərcümə ilə məşğul olan şair və yazıçılara tövsiyə olundu ki, xarici dillərdən bir sıra maraqlı əsərləri dilimizə tərcümə etsinlər. Bu sahədə artıq müəyyən təcrübə vardır. Belə ki, şair və yazıçılarımızdan Həmid Arzulunun alman, Şirməmməd Qüdrətoğlunun ingilis dillərindən etdiyi tərcümələr kitab şəklində oxuculara çatdırılmış, şair və yazıçılarımızın isə ayrı-ayrı dövrlərdə bir sıra dillərdən tərcümə etdiyi əsərləri mətbuatda çap olunmuşdur. Yeri gəlmişkən xatırladaq ki, Vaqif Məmmədovun, Elxan Yurdoğlunun türk poeziyasından tərcümə etdiyi poeziya nümunələri ayrıca kitab şəklində oxuculara təqdim olunmuşdur. Son illər isə AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin dünya ədəbiyyatının korifeylərindən sayılan Cəlaləddin Ruminin "Məsnəvi"sini ilk dəfə olaraq dilimizə çevirməsi müsbət ədəbi hadisə kimi dəyərləndirilir.

Muxtar respublikamızda yaşayıb-yaradan şair və yazıçılarımız bir sıra əsərləri orijinaldan tərcümə etmişlər. "Dünyaya pəncərə" adlı almanaxa daxil olunan əsərlərin çoxu birbaşa orijinaldan edilən tərcümələrdir. Həmid Arzulunun alman ədəbiyyatından bir sıra tərcümələri var. Onun tərcümə etdiyi bir sıra əsərlər ayrıca kitab şəklində oxuculara təqdim olunmuş, iki tərcümə əsəri isə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur. Həmid Arzulu Bertold Brextin "Üçüncü imperiya", "Cuhud arvad", "Ədalət məhkəməsi" və Efraim Lessinqin "Əsgər səadəti" dramlarını tərcümə etmişdir. Bu əsərlər alman ədəbiyyatının gözəl sənət nümunələri kimi təqdim olunur. Müharibə əleyhinə yazılmış bu əsərlərin ayrıca kitab şəklində oxuculara təqdim olunması diqqətəlayiqdir. İnanırıq ki, oxucularımız adlarını çəkdiyimiz bu dram əsərlərini sevə-sevə mütaliə edəcəklər.

Şirməmməd Qüdrətoğlu ingilis dilindən çoxlu şeirlər, poemalar tərcümə etmişdir. Şeirlərdən ibarət "Dünyaya pəncərə" kitabında onun ingilis dilindən tərcümə etdiyi 30-a yaxın şeir və Corc Qordon Bayronun "Dəniz quldurу" poemasından bir parça oxuculara təqdim olunmuşdur. Şirməmməd Qüdrətoğlu bu əsərlərin poetik şəkildə tərcüməsinə nail ola bilmişdir. O, Vilyam Şekspir, Tomas Mur, Lənqston Hyuz, Robert Berns, Pösi Biş Şelli, Çarlz Makey, Tomas Hud kimi məşhur ingilis şairlərinin şeirlərini poetik dillə ana dilimizə tərcüməsinə müvəffəq olmuşdur.

Eyni zamanda Şirməmməd Qüdrətoğlu məşhur ingilis yazıçısı Ernest Heminqueyin bir neçə hekayəsini də tərcümə etmişdir. Ernest Heminqueyin "Qoca və dəniz", "Əcəl zəngi", "Əlvida, silah" romanları Azərbaycan oxucularına yaxşı tanışdır. İnanırıq ki, bu məşhur yazıçının hekayələri də rəğbətlə qarşılanacaq.

Həmyerlimiz Şamil Zamanın fransız dilindən etdiyi tərcümələr ayrıca kitab şəklində oxuculara təqdim olunmuşdur. O, Fransanın dövlət himni olan "Marselyeza"nı da Azərbaycan dilinə tərcümə etmişdir. Müəllifin Pyer-Jan dö Beranje, Viktor Hüqo, Andre Şenye, Şarl Zasayi və digər şairlərdən etdiyi tərcümələr bədii dəyərinə görə seçilir. Yeri gəlmişkən bir məsələni də vurğulamaq istərdik ki, Şamil Zaman şairlərimizdən Elmira Qasımovanın və Vaqif Məmmədovun şeirlərini fransız dilinə tərcümə edərək ayrıca kitab şəklində çap etdirmişdir. O, 756 səhifədən ibarət "XI-XX əsr Azərbaycan poeziyası antologiyası" kitabının nəşrinə nail olmuşdur. Həmin kitabda həmyerlilərimizin yaradıcılığından da nümunələr vardır. Şamil Zaman Naxçıvan torpağının yetirməsi olan 53 şairin şeirlərindən ibarət 524 səhifəlik "Naxçıvanın şeir çələngi" adlı böyük bir toplu da hazırlamışdır. Akademik İsa Həbibbəyli bu kitaba "Naxçıvanın poeziya çələngi" adlı "Ön söz" yazmışdır. Həmin kitab da artıq oxucuların ixtiyarına verilmişdir.

Oxucular şeirlərdən ibarət "Dünyaya pəncərə" kitabında Kəmalə Ağayevanın, Hüseyn Razinin, İsa Həbibbəylinin, Muxtar Qasımzadənin, Şamil Zamanın tərcüməsində Aqniya Barto, Aleksandr Blok, Boris Pasternak, Rəsul Həmzətov, Rimma Kazakova, Vladimir Basin, Rəmz Babacan, Əhməd Sövqi, Klod Jozef Ruge dö Lil, Pyer-Jan dö Beranje, Viktor Hüqo, Şarl Zasayi kimi məşhur şairlərin yaradıcılığı ilə tanış olmaq imkanı qazanmışlar. Oxucular Vaqif Məmmədovun, Elxan Yurdoğlunun tərcüməsində isə 25 türkiyəli şairin 49 şerini sevə-sevə oxuyacaqlar.

Hekayələrdən ibarət "Dünyaya pəncərə" adlı kitabda isə Şirməmməd Qüdrətoğlunun ingilis dilindən tərcümə etdiyi hekayələrlə yanaşı, Əliəddin Abbasovun, Hüseyn Əsgərovun, Bağır Qədimin tərcüməsində bir sıra xarici ölkə yazıçılarının maraqlı hekayələri dərc olunmuşdur.

Qeyd edək ki, şair və yazıçılarımızın, filoloq alimlərimizin son illərdə xarici ölkələrdə ondan artıq kitabı çap olunmuşdur. Akademik İsa Həbibbəylinin, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin, filologiya elmləri doktoru, professor Yavuz Axundlunun, filologiya elmləri doktoru Hüseyn Həşimlinin, Elmira Qasımovanın, Kəmalə Ağayevanın, Həmid Arzulunun, Vaqif Məmmədovun, Xanəli Kərimlinin, Məmməd Tahirin, Şirməmməd Qüdrətoğlunun, Hüseyn Bağırın, Zeynəb Naxçıvanlının əsərləri ayrıca kitab şəklində Rusiyada, Pakistanda, Ukraynada, Misirdə, Türkiyədə, İranda çap olunmuşdur. Bundan əlavə, bir sıra şairlərimizin şeirləri də müxtəlif dillərə tərcümə olunaraq qəzet və jurnallarda dərc edilmişdir. İstərdik ki, Naxçıvan ədəbi mühitinin yetirmələri olan şair və yazıçılarımızın əsərləri xarici ölkələrdə daha çox çap olunsun. Ona görə də çalışacağıq ki, Bədii Tərcümə Mərkəzinin, eləcə də şair və yazıçılarımızın tərcümələri sayəsində Naxçıvan ədəbi mühitinin yetirmələri olan şair və yazıçılarımızın əsərləri başqa dillərə tərcümə olunaraq kitab şəklində xarici ölkə oxucularına da çatdırılsın.

Son illərdə ədəbiyyata onlarla gənc gəlib. Amma tərcümə ilə məşğul olan yaradıcı gənclərimiz yoxdur. Gənc şairlərdən Elxan Yurdoğlunun türkiyəli şairlərdən dilimizə çevirdiyi şeirlər var. Ancaq istərdik ki, bədii yaradıcılıqla məşğul olan gənc şairlər tərcümə sənətini də unutmasınlar. Bugünkü gəncliyin qarşısında böyük imkanlar açılmışdır. Gənclərimizin çoxu ingilis dilini yaxşı bilir. Ona görə də bədii yaradıcılıqla məşğul olan gənclərimiz bu sahəyə də ciddi fikir verməli, özlərində tərcüməçilik vərdişi yaratmalıdırlar.

Düşünürük ki, gələcəkdə Bədii Tərcümə Mərkəzi orijinaldan tərcümə işini günün tələbləri səviyyəsində quracaq, şair və yazıçılarımız bu işə daha ciddi yanaşacaq, dünya ədəbiyyatının gözəl nümunələri doğma ana dilimizdə səslənəcəkdir.

*"Dünyaya pəncərə" adlı 3 tərcümə kitabının çap olunmasına göstərdiyi diqqət və qayğıya görə yazıçı və şairlərimiz adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımızı bildiririk.*

**Asim YADİGAR**
***Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri***

*Nurbəniz Niftəliyeva 1984-cü ildə Şərur rayonunun Xanlıqlar kəndində anadan olub. Bir neçə ildir ki, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktrisa kimi fəaliyyət göstərir. Sənətinə olan hədsiz sevginin nəticəsidir ki, gənc olsa da, teatrda işlədiyi qısa müddət ərzində bir sıra uğurlara imza atıb, yaddaqalan obrazlarla tamaşaçılarda özünəməhəbbət hissi yaradıb. Bu yaxınlarda gənc istedadı oxucularımızla daha yaxından tanış etmək üçün redaksiyamıza dəvət etdik və onunla həmsöhbət olduq. İlk sualımız da teatr sənətinə gəlişi ilə bağlı oldu:*

Gənc istedadlar

# Böyük uğurlara doğru



– Bu sənətin qığılcımlarını lap uşaqlıqdan ürəyimdə hiss etmişdim. Məktəbdə keçirilən bütün mədəni tədbirlərdə iştirak edirdim. Şeir müsabiqələrində həmişə uğur qazanırdım. Tamaşaçı alqışına alışmışdım. İncəsənət sahəsi məni özünə yaman cəlb etmişdi. Ancaq ailəm müəllim olmağımı istəyirdi. Bakı şəhərində qəbul imtahanlarına hazırlaşdığım ərəfədə bibim istedadıma bələd olduğu üçün onun istəyi ilə sənədlərimi Bakı Mədəni-Maarif Texnikumuna verdim. Və bədii yaradıcılıq ixtisasına qəbul olundum. Təhsilimi başa vurduqdan sonra 2007-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktrisa kimi işləməyə başladım. Elə ilk rol aldığım tamaşada mənə əsas obrazlardan biri həvalə edildi. Yoldaşlarımın dediyinə görə, rolun öhdəsindən layiqincə gəldim. Gənc olmağıma baxmayaraq, teatrın əsas aktrisalarından birinə çevrildim. Ən böyük arzularımdan biri Naxçıvan teatrında çalışmaq idi. Əvvəlcə Şərur Xalq Teatrında fəaliyyət göstərdim. Sonra fəaliyyətimi böyük səhnədə – Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında davam etdirməyə başladım. Qürur duyuram ki, bu sənət məbədinin aktrisasıyam.

***– Maraqlıdır, teatr sənətinə belə qəlbən bağlanan Nurbəniz üçün teatr, səhnə nə deməkdir? İndiyə qədər hansı rolları ifa etmisiniz?***

– Teatr mənim üçün müqəddəs bir yerdir, bir məbəddir. Həyatımı teatrsız təsəvvür edə bilmirəm. Teatr həyatda və cəmiyyətdə baş verən hadisələri görmək, duymaq və onları dərk etmək üçün qarşılıqlı münasibətlərin inikasını yaradır, burada real həyat hadisələri obrazların dili ilə tamaşaçıya çatdırılır. Bu mənada incəsənətin heç bir növünü teatrla müqayisə etmək olmaz. İnsan həyatda bir ömür yaşayırsa, səhnə adamı səhnədə onlarca həyat, ömür yaşayır. Ən böyük sakitliyimi səhnədə tapıram. Səhnə mənim iş yerimdir. Düşünürəm ki, mənim üçün dünyanın heç bir iş otağı səhnə qədər sehrli və cazibədar ola bilməz. Hələ tamaşanın sonunda gur alqışların, tamaşaçıların sevgi dolu baxışlarının bəxş etdiyi sevinci ifadə etmək mümkün deyil. Bir sözlə, teatr mənim üçün bütün çalarları ilə gözəldir. Ona görə də bütün rollarımı sevə-sevə ifa edirəm.

Oynadığım rollara gəlincə, Çexovun "Russayağı evlənmə" əsərində Natalya, İslam Səfərlinin "Göz həkimi" əsərində Gülər, Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində Nina, Müzəffər Nəsirlinin "Qonçabəyim nəğməsi" əsərində Pəri, Nazim Hikmətin "Kəllə" pyesində Dalbanezonun qızı obrazlarını canlandırmışam.

***– Bəs aktrisa kimi yetişməyinizdə kimlərin rolu olub?***

– Məncə, obrazı təkcə yaşamaq və duymaqla tam bədii bütövlüyə nail olmaq mümkün deyil. Bu işdə aktyorun professional ustalığa, səhnə danışığına yiyələnməsinin böyük əhəmiyyəti var. Sözsüz ki, mənim də bir aktrisa kimi müəyyən uğurlar qazanmağımda professional aktyor və aktrisaların böyük rolu olub. Özümü onlara borclu hesab edirəm. Bu gün onlardan çox şey öyrənirəm. Müəllimim deyirdi ki, teatr sənətçisinin zirvəsi yoxdur. Aktyor ucaldıqca ucalmalıdır. Hələ mən özümü tam yetişmiş kimi görmürəm. Önümdə uzun yol var. Sevinirəm ki, teatrın qocaman və professional aktyor və aktrisaları ilə bir səhnəyə çıxıram. Onlardan öyrəndiklərim çox şeylər var və olacaq da.

***– Nurbəniz xanım, tamaşaçılar sizi həm də müxtəlif tədbirlərin aparıcısı kimi tanıyırlar...***

– Hər ay, demək olar ki, müxtəlif səpgili tədbirlərin aparıcısı oluram. Səmimi etiraf edim ki, aparıcı olmağın həyəcanı tamam başqadır. Hətta mən deyərdim ki, aparıcı olmaq səhnədə hər hansı bir rolu ifa etməkdən qat-qat çətindir. Çünki burada tək olursan. Birbaşa auditoriyaya danışırsan. Tədbirin məqsədinin tamaşaçılara çatdırılması vəzifəsi aparıcının üzərinə düşür. Hər hansı bir tədbirin aparıcısı olmaq vəzifəsi tapşırılanda üzərimdə çox çalışıram.

***– Bu gün bütün gənc istedadlar dövlət qayğısı ilə əhatə olunublar. Teatrda gənclərə göstərilən qayğı sizin yaradıcılığınıza necə təsir edir?***

– Bu gün muxtar respublikamızda gənclərə xüsusi diqqət və qayğı göstərilir. Doğma diyarımızda hər bir gəncə özünü təsdiq etməsi, yüksək bilik qazanması üçün geniş imkanlar var. Bu imkanlardan səmərəli istifadə etmək lazımdır. Belə imkanlardan səmərəli istifadə edən hər bir gənc həyatda öz yerini tutacaqdır. Mən aktrisası olduğum teatrda həmişə gənclərə göstərilən qayğını öz şəxsimdə hiss etmişəm. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 30 aprel tarixli Sərəncamı ilə bir qrup aparıcı incəsənət adamlarına Azərbaycan Respublikası Prezidentinin mükafatları verildi. Bu sərəncamda mənim də adım var idi. Bu yaşda Prezident mükafatına layiq görülməyim mənim timsalımda gənclərə göstərilən qayğının bir nümunəsidir. Belə qayğı məsuliyyətimi xeyli artırıb. Düşünürəm ki, bu qayğıya cavab vermək üçün öz üzərimdə ciddi çalışmalı, yaradıcılıq axtarışları aparmalı, bu gün qazandıqlarımla kifayətlənməməli, daha böyük uğurlara nail olmaq üçün səhnənin imkanlarından, göstərilən diqqətdən səmərəli istifadə etməliyəm. Bu həm də mənim qədim sənət ocağına və həmişə səhnədən alqışlarla yola salan tamaşaçılara ən böyük töhfəm olar.

**Sara ƏZİMOVA**

### İtmişdir

Ordubad rayonunun Aza kənd sakini İbrahimova Sevinc Müslüm qızının adına olan JN-079A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Ordubad rayonunun Aza kənd sakini İbrahimova Sevinc Müslüm qızının adına olan JN-535 nömrəli "Torpağın mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Şahtaxtı kənd sakini Əliyeva Fəriqə Hüseyn qızının adına olan JN-163A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 799